# Naftalanda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb

**44 günlük Vətən müharibəsi zamanı şəhadətə ucalmış Bəxtiyar Aslanovun ölümündən dörd il ötür. Bu münasibətlə Naftalanda anım mərasimi keçirilmişdir.**



Anım mərasimində iştirak edən şəhər icra hakimiyyətinin və YAP Naftalan şəhər təşkilatının nümayəndələri, eləcə də şəhər polis şöbəsinin əməkdaşları və şəhidin ailə üzvləri B.Aslanovun məzarını ziyarət etmiş, xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra çıxışlar olmuşdur. Çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdikləri qəhrəmanlıqlardan söz açmışlar. Bildirilmişdir ki, Prezident-ordu-xalq birliyinin, həmrəyliyinin nəticəsidir ki, Azərbaycan 30 illik işğala son qoymuşdur.

Qeyd edək ki, Aslanov Bəxtiyar İlqar oğlu ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 15 fevral (№ 34).- S.20.